


## KÖRPƏLƏRDƏ SANCILAR

Təxminən körpələrin 20-25 %-i narahatlıq və qışqırıqla müşayiət olunan sancılardan əziyyət çəkir. Sancısı olan uşaqlar adətən ayaqlarını qarın nahiyəsinə doğru yığaraq, dayanmadan ağlayırlar.

Təbii ki, bir qayda olaraq bütün körpələr ağlayır, lakin əgər ağlama gün ərzində 3 saatdan, həftə ərzində isə 3-4 gündən artıq olarsa, belə körpələrdə sancı olması ehtimalı böyükdür.

## SANCI OLMASINI TƏSDİQLƏYƏN ƏLAMƏTLƏR

•Sancı 15 gündən 3-4 ay dövründə olan körpələrdə müşahidə edilir.
•Körpə adətən, 2-3 saat ərzində dayanmadan ağlayır və onu sakitləşdirmək mümkün olmur.
•Günün eyni vaxtlarında (adətən günorta və axşamüstü) gündə bir neçə dəfə ağlayır.
• Ayaqlarını qarın nahiyəsinə doğru yığmaqla biləklərini sıxır.
•Tez-tez köp və vaxtaşırı qəbizlik müşahidə olunur.

## KÖRPƏLƏRDƏ SANCILARIN YARANMASININ ƏSAS SƏBƏBLƏRİ

Sancı əksər hallarda bağırsaq fəaliyyətinin tam formalaşmaması, əmizdirmə zamanı hava udulması, ananın qəbul etdiyi bəzi qida məhsulları, diskomfort və ya gərginlik səbəbindən baş verir.

## LAKTOZAYA QARŞI DÖZÜMSÜZLÜK

Laktoza –südün tərkibində olan və tərkibcə iki molekuldan - qlükoza və qalaktozadan ibarət şəkərdir.

Bu molekulların bağırsaq səviyyəsində absorbsiya olunması (sorulması) üçün bağırsaq xovlarında ifraz olunan laktaza fermentinin təsiri nəticəsində parçalanması (hidrolizə uğraması) tələb olunur.

Laktaza fermentinin çatışmazlığı zamanı və ya onun qədər ifraz olunmadığı halda laktoza hidrolizə uğrmır və nəticədə laktozaya qarşı dözümsüzlük yaranır. Belə hal müvəqqəti xarakter daşısa da, tez-tez təsadüf edilir. Körpənin 3-4 ay dövründə sürətli inkişaf dövrü başlayır və orqanizmdə kifayət qədər laktaza ifraz olunmaqla, daxil olan laktozanın mənimsənilməsinin yaxşılaşması müşahidə olunur. Körpə doğulduğu andan etibarən ilk həftələrdə laktaza fermentinin normadan az ifrazı laktozanın həzm olunmamasına və bağırsaq bakteriyalarının təsiri altında qıcqırmaya məruz qalmasına səbəb olur. Nəticədə bagırsaqlarda qaz yığılır. Bu isə öz növbəsində körpənin qarın nahiyəsində bərkləşmə ilə müşayiət olunan köpün yaranmasına və qarın boşluğunda şişkinliyin əmələ gəlməsinə səbəb olur.

Həddindən artıq fermentativ fəallıq bağırsaq peristaltikasında nizamsızlığın yaranmasına və qıcolmalara səbəb ola bilər, tez-tez mədədə səslər eşitmək olar.

Laktoza və süd turşusunun yaratdığı təzyiq reflüksla müşayiət olunmaqla, qəbizlik və diareyanın yaranması ilə nəticələnir. Bağırsaqda osmotik təzyiqin artması nəticəsində yaranan su itkisi orqanizm tərəfindən kompensasiya olunmazsa, dehidratasiya ilə nəticələnə bilər.

Bəzi məhsullar var ki, onların ana tərəfindən qəbulu körpədə sancıların yaranmasına və ya mövcud sancıların kəskinləşməsinə səbəb ola bilər. Buna görə də laktasiya dövründə həmin məhsullar qida rasionundan çıxarılmalıdır. Bu məhsullara gül kələmi, brokkoli, brüssel kələmi, xiyar, soğan, qırmızı bibər, kofe və həddindən artıq ədviyyatlı yeməklər aiddir.

Körpə sakit və rahat mühitdə yedizdirilməlidir.

Əgər körpədə sancıların yaranma səbəbi laktozanın kifayət qədər ifraz olunmaması ilə bağlıdırsa, bu zaman laktaza fermetinin süddə istifadəsindən sonra diskomfort hissi aradan qalxır və ya azalır.

Yarımçıq doğulmuş və ya yenidoğulmuş, az çəkili körpələr bu cür sancılardan daha çox əziyyət çəkir və onlarda sancılar daha uzun müddətli olur. Bu hal daha çox bağırsağın inkişaf səviyyəsi və onun mikroflorasından asılıdır.

## COLİPREV® - İN XÜSUSİYYƏTLƏRİ

•Tərkibcə Aspergillus oryzae göbələyindən alınmış yüksək aktivliyə malik laktaza fermentidir;
•Aspergillis oryzae davamlı və bioloji aktiv laktaza mənbəyidir;
•Mədə turşusunun PH faktoruna davamlıdır;
•PH faktorda kəskin dəyişikliklər baş verdikdə belə, ferment xüsusiyyətlərini itirmir;
•Hər yeməyə 8 damcı əlavə edilməklə 15 ml məhsuldan təxminən 37 yemək porsiyası hazırlamaq mümkündür.

Laktaza fermenti süddə laktozanın hidrolizini asanlaşdırır. Laktozanın parçalanması üçün lazım olan laktaza fermentinin kifayət qədər ifraz olunmadığı halda ilk 3-4 ayda uşağı hər dəfə yedizdirəndə COLİPREV® istifadə olunmalıdır. Daha sonra onun qəbulu tədricən azaldılmalıdır.

Qida qəbulu zamanı tövsiyə olunan doza əvvəlcə yarıya qədər azaldılmalı, sonra gün ərzində bir dəfə qəbul edilməklə gündəlik qəbul sayı azaldılmalı, daha sonra COLIPREV®-in qəbulu tam dayandırılmalıdır.

Əgər COLİPREV® körpənin qida rasionundan çıxarıldıqdan sonra körpədə diskomfort hissi davam edərsə, yaxud yenidən təkrarlanarsa, istifadə sxemi yenidən tətbiq edilə bilər.

## TƏRKİBİ (1 ml – də):

*Təsiredici maddələr (miqdarı göstərilməklə):*
Laktaza (Lactase) – ≥3000 ALU
*Köməkçi maddələr:*
Qliserin (Glycerin), Kalium xlorid (Potassium chloride), Kalium sorbat (Potassium sorbate), Təmizlənmiş su (Purified water).

## İSTİFADƏ SAHƏSİ VƏ ƏSAS GÖSTƏRİŞLƏR:

Körpələrdə köp sancıları zamanı tövsiyə olunan BFMQƏ

## ƏKS GÖSTƏRİŞLƏR:

Məhsulun komponentlərinə qarşı fərdi həssaslıq

## İSTİFADƏ QAYDASI VƏ DOZASI

**Ana südü ilə:**
• əvvəlcədən sterilizə edilmiş qaşığa müvafiq sayda damcı (dozalar olan cədvələ əsasən) əlavə etməklə birbaşa uşağın ağzına damızdırılır.
• körpənin əmizdirilməsi adi qaydada davam etdirilməlidir.
**Körpələr üçün nəzərdə tutulmuş süni qida ilə:**
• körpələr üçün qida təlimatda göstərilən qaydada hazırlanmalıdır.
• COLİPREV® cədvəldə göstərildiyi dozalarda ılıq südə əlavə edilməlidir.
• istifadə edilməyən qalıq atılmalıdır.

Əgər körpənin yeməyini əvvəlcədən hazırlamaq lazımdırsa, bu zaman südə 4 damcı COLİPREV® əlavə etmək və soyuducuda 4 saat ərzində saxlamaq olar.
Aşağıdakı cədvəldə dozalar qeyd edilib.

QİDA QƏBULU ZAMANI MƏSLƏHƏT GÖRÜLƏN DOZALAR

| Yaş həddi | İstifadə edilən südün miqdarı | Damcıların sayı | Laktazanın miqdarı |
|---|---|---|---|
| 0-2 həftəlik | 60-90 ml | 5 damcı | 750 ALU* |
| 3-4 həftəlik | 120 ml | 6 damcı | 900 ALU |
| 1 - 2 aylıq | 150 ml | 8 damcı | 1200 ALU |
| 3 - 4 aylıq | 180 ml | 9 damcı | 1350 ALU |

*1 ALU= 0,333 µL

## XƏBƏRDARLIQLAR VƏ EHTİYAT TƏDBİRLƏRİ

COLİPREV® - in tərkibində olan ferment yüksək temperaturun təsirindən parçalanır.
COLİPREV®-i südlə qarışdırarkən nəzərə almaq lazımdır ki, süd ılıq və ya adi otaq temperaturuna malik olsun (qaynar və ya soyuq olmamalıdır).
İçlik vərəqində qeyd edilən təlimatlara dəqiq riayət edilməlidir.
Əgər körpənin narahatçılığı aradan qalxmazsa, həkimlə məsləhətləşmək lazımdır.
Dərman vasitəsi deyildir. Xəstəliklərin müalicəsi məqsədi ilə istifadə edilə bilməz. Tövsiyə edilən sutkalıq dozanı keçməyin. BFMQƏ normal qidalanmanı əvəz etmir. Uşaqların əli çatmayan yerdə saxlayın. Hamiləlik və laktasiya dövründə, xəstəlik və ya dərman istifadəsi zamanı həkimlə məsləhətləşin.

## BURAXILIŞ FORMASI:

Daxilə qəbul üçün məhlul – damcı, 15 ml plastik flakonda №1, içlik vərəqə ilə karton qutu qablaşmada.

## YARARLILIQ MÜDDƏTİ:

2 il

## SAXLANMA ŞƏRAİTİ

25ºC –dən yuxarı olmayan temperaturda, quru və qaranlıq yerdə saxlamaq lazımdır. Məhsulu orijinal qablaşmada saxlayın.
Flakon açıldıqdan sonra 3 həftə ərzində istifadə edilə bilər.
Qablaşma üzərində qeyd edilən yararlılıq müddəti bitdikdən sonra məhsul istifadə edilməməlidir.

## İSTEHSALÇI

Lecifarma - Laboratorio Farmaceutico, Lda
Varzea do Andrade, Cabeço de Montachique, 2670-741 Louse, Loures, Portuqaliya

## MARKETİNQ ÜZRƏ SƏLAHİYYƏTLİ SAHİBKAR

NEOSANTE® Health Solutions. S.A.
Rua Dr. Antonio Dias Pinheiro, 370
2750-294 Cascais, Portuqaliya

NEOSANTÉ®
Health Solutions